AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NİZAMİ GƏNCƏVİ ADINA
MİLLİ AZƏRBAYCAN ƏDƏBİYYATI MUZEYİ

ISSN 2522-4808 (Print)
ISSN 2702-0034 (Online)

RİSALƏ

Elmi araşdırmalar jurnalı

2(17)



Bakı – "Elm və təhsil" – 2019

Azərbaycan Milli Elmlər Akademiyası
Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi
Elmi Şurasının 27 sentyabr 2019-cu il tarixli (protokol № 8)
qərarı ilə çap olunur

Baş redaktor:
Rafael Hüseynov,
akademik

Redaksiya heyəti:

Kamil Allahyarov, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan
Xatirə Bəşirli, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan
Şəfəq Əlibəyli, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan
Aida Qasımova, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan
Tofiq Məlikli, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan
Rəhilə Qeybullayeva, filologiya üzrə elmlər doktoru, professor, Bakı Slavyan Universiteti, Azərbaycan
Mehdi Kazımov, filologiya üzrə elmlər doktoru, professor, Bakı Dövlət Universiteti, Azərbaycan
Paşa Kərimov, filologiya üzrə elmlər doktoru, dosent, AMEA Əlyazmalar İnstitutu, Azərbaycan
Ali Yavuz Akpınar, professor, doktor, Boğaziçi Universiteti, Türkiyə
Hasan Cavadi, professor, doktor, Kaliforniya Universiteti, ABŞ
Firuza Melvil, doktor, Kembric Universiteti, Böyük Britaniya
Özgen Felek, professor, doktor, Yel Universiteti, ABŞ
Campiyero Bellinceri, doktor, Venesiya Ka Foskari Universiteti, İtaliya
Mbaye Lo, professor, doktor, Dyuk Universiteti, ABŞ
Hendrik Boeşoten, professor, doktor, Maynz Universiteti, Almaniya
Nataliya Çalisova, filologiya üzrə elmlər doktoru, professor,
Rusiya Dövlət Humanitar Universiteti, Rusiya Federasiyası
Şodimaxammad Sufiyev, filologiya üzrə elmlər doktoru, professor,
Tacikistan Respublikası Elmlər Akademiyası, Tacikistan
Zemfira Səfərova, akademik, AMEA Memarlıq və İncəsənət İnstitutu, Azərbaycan
Cəfər Qiyasi, AMEA-nın müxbir üzvü, Azərbaycan
Məryəm Əlizadə, sənətşünaslıq doktoru, professor, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan
Marko Realini, professor, doktor, İtaliya Milli Tədqiqat Şurası, İtaliya

Risalə. Elmi araşdırmalar jurnalı. № 2 (17)
Bakı, "Elm və təhsil" nəşriyyatı, 2019, 256 s.

Orta əsrlərdə müsəlman Şərqində yaradılan elmi əsərlər "risalə" adlanırdı. Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin klassik ənənəyə riayətlə "Risalə" adlandırılmış, ədəbiyyatşünaslıq və mədəniyyətşünaslıq problemlərinin elmi araşdırmalarından ibarət məqalələr toplusu ildə iki dəfə (yaz və payız) nəşr edilir. Bu elmi araşdırmalar jurnalı məzmunu etibarilə filologiya (Azərbaycan və dünya ədəbiyyatı, ədəbiyyat nəzəriyyəsi, ədəbi təhlil və tənqid, folklorşünaslıq, mətnşünaslıq) və sənətşünaslıq (muzeyşünaslıq) sahələri üzrə məqalələri əhatə edir.

"Risalə" elmi araşdırmalar jurnalı filologiya və sənətşünaslıq elm sahələri üzrə Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi dövri elmi nəşrlər siyahısındadır. 2019-cu ildə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin "Mətbu nəşrlərin reyestri"nə daxil edilmişdir (Reyestr № 4216). Eyni zamanda, "Risalə" elmi araşdırmalar jurnalı 05 aprel 2018-ci ildən EBSCO beynəlxalq elektron məlumat bazasına daxil edilmişdir (Müqavilə № 46516).

© AMEA Nizami Gəncəvi adına
Milli Azərbaycan Ədəbiyyatı Muzeyi
© 2019

KLASSİK İRS: TARİXİ VƏ NƏZƏRİ PROBLEMLƏRİ

Rafael Hüseynov. Nəsimi poeziyasında cavablı və cavabsız suallar 9
Əkrəm Bağırov. Mir Möhsün Nəvvabın "Təzkireyi-Nəvvab" əsəri haqqında bəzi qeydlər 24
İlhamə Gültekin. Seyyid Əşrəfəddin Gilaninin təmsilləri və satirik şeirləri .. 32
Zəhra Əhmədi. Introduction of the handwriting manuscript of the Ghodsi poems, held in Tabriz Central Library 47
Gülnar Əqiq. Fətəli şah Qacarın "Məcnuna tənə" məsnəvisi Nizami Gəncəvinin "Leyli və Məcnun" poemasının ənənələri kontekstində 71
Heybət Heybətov. Poeziya nümunələrinin orta əsr elmi mühakimələrində istifadəsi – şəvahid anlayışı 81
Ruziyə Quliyeva. Əssar Təbrizinin "Mehr və Müştəri" məsnəvisində humanist ideyalar, estetik və elmi fəlsəfi görüşlər 96
Kəmalə Nuriyeva. Abbasqulu ağa Bakıxanovun "Riyazu-l-quds" əsəri klassik məqtəl ənənəsinin davamı kimi 106
Rəhilə Sadıqova. Bədii ədəbiyyatın tibbi vəzifəsi: "Əlfiyyə və Şəlfiyyə".... 117

YENİ VƏ MÜASİR DÖVRDƏ ƏDƏBİ-MƏDƏNİ PROSES

Kəmalə Cəfərova. Müasir Azərbaycan ədəbiyyatında repressiya ictimai-siyasi prosesin ən böyük hadisəsi kimi 127
Fatima Dursunova. Мифопоэтические истоки образа вождя в тюркской советской литературе 136
Gülgün Əliyeva. Müasir poeziyada Seyid İmadəddin Nəsimi obrazı 150
Mahirə Hacıyeva. Bədii düşüncənin təqdimat formaları 159
Güllü Xəlilova. XIX əsr Azərbaycan şeirində hərb mövzusu 165
İradə Musayeva. Postmodernizmin digər ədəbi-estetik "izm"lərdən fərqi... 176
Natavan Mustafayeva. Ənvər Məmmədxanlının "Babək" əsərində tarixi gerçəklik və yazıçı təxəyyülü 185
Günel Səfərova. Yəğma Cəndəqi poeziyasının tədqiqi və təhlili istiqamətlərində Cəfər Rəmzi İsmayılzadənin rolu 199
Aytac Zeynalova. Azərbaycan lirik şeirinin inkişaf yolları (XIX əsr Abşeron ədəbi mühiti əsasında) 208

UOT 821.512.162

Kəmalə NURİYEVA
Fəlsəfə üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Milli
Azərbaycan Ədəbiyyatı Muzeyi
kamala.nur@mail.ru

ABBASQULU AĞA BAKIXANOVUN "RİYAZU-L-QUDS" ƏSƏRİ KLASSİK MƏQTƏL ƏNƏNƏSİNİN DAVAMI KİMİ

Açar sözlər: hüzn ədəbiyyatı, dini lirika, məqtəl, mərsiyə, Kərbəla, A.Bakıxanov

Keywords: grief literature, religious lyrics, maktal, elegy, Karbala, A.Bakikhanov

Ключевые слова: литература скорби, религиозная лирика, мактал, элегия, Кербела, А.Бакиханов

Giriş. XIX əsr Azərbaycan ədəbiyyatı – xüsusən poeziyası, həm mövzu və məzmun baxımından, həm də janr, üslub cəhətdən zəngin olub Azərbaycan ədəbiyyatının mühüm inkişaf mərhələsini özündə əks etdirir. Bu dövrdə yeni üslub və janrların təşəkkülü ilə yanaşı, klassik ənənələr də öz varlığını davam etdirir, fərqli ideya-məzmun təzahürləri müşahidə olunur. Klassik üslubda yazan şairlərin təhsili və dünyagörüşü onların yaradıcılığında müəyyən qədər ziddiyyətli şəkildə əks olunurdu. Onlar bir tərəfdən dünyəvi elmləri, maarifi təbliğ edir, dini fanatizmə, mövhumata qarşı çıxır, digər tərəfdən isə dini-tarixi məzmunlu əsərlər yazır, mübarizələrində dinin özü ilə "silahlanırdılar". XIX əsrdə, xüsusən əsrin ikinci yarısında mərsiyə, növhə, məqtəl və s. kimi klassik janr və mövzularda yazılmış əsərlər çox geniş yayılmışdı, hətta deyə bilərik ki, bu dövr Azərbaycan ədəbiyyatında "mərsiyə poeziyası" yaranmışdı. Bu poeziya sadəcə dini məzmun daşımır, tarixiliklə yanaşı reallığı, öz dövrünü ifadə edir, eyni zamanda dini ənənə ilə bərabər ədəbi ənənəni də özündə ehtiva edirdi. Şeirlərin ideya və məzmunu bəzən dini təəssübkeşliyin hüdudlarını aşırdı. İnsan hisslərini, əxlaqi keyfiyyətləri tərənnüm etməklə yanaşı, XIX əsr mərsiyəsində insanın azadlığı ideyası da qabarıqdır. Bunu Rusiya–İran müharibələri zamanı Azərbaycanın iki yerə bölünməsi, xüsusilə Şimali Azərbaycanın qeyri-müsəlman Çar Rusiyasına ilhaqından sonra əksəri müsəlman (əsasən şiə) olan əhalinin ümumi ümidsizlik, azadlıq hisslərini dini inancla əsaslandırmaq istəkləri ilə izah etmək olar. Eyni zamanda, bu mövzu Şimali Azərbaycanla Cənubi Azərbaycanı bir-birinə bağlayan bağ rolu oynayırdı. Belə ki, Cənubda yazılan əsərlər Şimalda, Şimalda yazılanlar isə Cənubda geniş yayılırdı. Xüsusən məhərrəmlik təziyələri zamanı (təxminən 2 ay) sərhədlər "aradan qalxar", inanc birliyi, bir növ, milli birliyə çevrilərdi.

XIX əsrdə də dini məzmunlu mərsiyələrin əsas mövzusu "Kərbəla vaqiəsi" idi. Bu dövr mərsiyə yazan şairlərdən ən məşhurları Molla Hüseyn Dəxil Marağayi, Mirzə Məhəmməd Qumri, Əbülhəsən Raci hesab edilir. Həmçinin mərsiyə ilə yanaşı klassik ənənənin davamı olaraq məqtəl əsərləri də yazılırdı. Orta əsrlərə aid ən məşhur məqtəl əsərləri sırasında "Kitəbu-məqtəli-hüseyn", "Məqatilut-talibin", "Rouzətuş-şuhəda", "Hədiqətus-suəda" və s. adlarını çəkmək olar. XIX əsrdə Azərbaycanda qələmə alınmış məqtəl nümunələri kimi M.Qumrinin müəllifi olduğu "Kənzu-l-məsaib", A.Bakıxanovun "Riyazu-l-quds" əsərləri xüsusilə qeyd edilməlidir. Məqalənin əsas obyekti olan "Riyazu-l-Quds" əsərinə keçməzdən öncə məqtəl əsərlərinin xüsusiyyətləri və A.Bakıxanova qədər yazılmış məqtəl nümunələrinə də diqqət yetirməyi məqsədəuyğun hesab etdik.

Məqtəl ədəbiyyatının forma və məzmun xüsusiyyətləri, orta əsrlər məqtəl nümunələri. Məqtəl əsərlərinin yazılma ənənəsi ərəb ədəbiyyatından başlayır. Lüğətdə "kiminsə öldürüldüyü yer" və ya "öldürüldüyü zaman" mənasına gələn *məqtəl* sözü Cahiliyyə dövrü ərəb şeirlərində istifadə olunsa da, termin kimi İslamın ilk illərində dinin yayılması zamanı, bir qədər sonra isə Xilafətdaxili müharibələrdə həlak olmuş məşhurların (Hz.Həmzə, Hz.Osman, Hz. Əli, Hz. Həsən, Hz.Hüseyn və b.) ölüm hadisələrinin təsvirini özündə əks etdirən tarixi məzmunlu əsərlərə verilən ad olmuşdur. Bu məqtəllərin digər tarixi məzmunlu əsərlərdən fərqi yalnız qətl hadisəsini əsas götürərək ətraflı şəkildə təsvir edilməsidir. Belə məqtəllər hadisələrin şahidi olanlar tərəfindən və ya şahidlərin dilindən eşidərək üçüncü şəxslər tərəfindən qələmə alınırdı. Zaman keçdikcə tarixi hadisələri ehtiva edən ədəbi əsərlər formalaşmağa başladı. Ədəbi-bədii xüsusiyyət daşıyan məqtəllərdə tarixi faktlar əks olunsa da, möcüzəvi hadisələrlə bəzəmək – əfsanələşdirmək meyilləri də artırdı. Janr etibarilə ədəbi məqtəllər nəzmlə və ya nəsrlə, bəzən isə nəzmlə nəsrin növbələşməsi şəklində yazılan, İslam dininin ən böyük şəhidləri, xüsusən də Hz. Hüseyn (ə.) haqqında qələmə alınmış müxtəlif janrlı əsərlərdir. Məqtəl əsərlərində İslam dininin bir sıra şəhidlərinin şəhadət vaqiələri geniş təsvirlə, tarixi faktlardan müəyyən uzaqlaşmalarla qələmə alınsa da, belə məqtəllərin ən çoxu "Kərbəla hadisəsi"nə həsr edilmişdir. İslam tarixində "qardaş müharibələri" deyə biləcəyimiz bir neçə müharibə (Siffin, Cəməl, Nəhrəvan və s.) olsa da, Kərbəla vaqiəsi görünməmiş bir müsibət, qeyri-bərabər döyüş, qanlı faciə kimi dəyərləndirilmiş, məzhəbindən asılı olmayaraq müsəlman xalqları ədəbiyyatında yeni bir mövzunun, müxtəlif janrlı əsərlərin yaranmasına gətirib çıxarmışdır. İlk ədəbi məqtəl nümunələri də, tarixi məqtəllər kimi, başlanğıcını ərəb ədəbiyyatından götürür. İlk 400 ildə təxminən 32 müəllifin bir və ya bir neçə məqtəl yazdığı məlumdur [16, s.455]. Bəzi tədqiqatçılar [10, s.6; 12, s.24; 14, s.8 və s.] ilk məqtəl nümunəsi kimi ərəb yazıçısı Əbu Mixnəf bin Yəhyanın (v.157/774) "Kitabu-məqtəli-Hüseyn" əsərini hesab etsələr də, İslam ensiklopediyasında ilk məqtəl kimi Cabir bin Cu'finin günümüzə qədər gəlib çatmayan "Məqtəlu (Ali) əmiri-l-mü'minin" əsəri göstərirlir. Əbu Mixnəfin isə mənbələrdə 13 məqtəl əsəri olduğu bildirilir [16, s.455]. Ərəb ədəbiyyatında məqtəl nümunələri çoxsaylı olsa da (mövcud məqalə çərçivəsində adlarını sadalamağı

gərəkli bilmədik), ərəbdilli məqtəlin zirvəsi Əbul-Fərəc əl-İsfahaninin "Məqatilut-talibin" əsəridir. Əslində həm tarixilik, həm də bədiilik baxımından ərəb, fars və türk dillərində yazılmış məqtəllər arasında əl-İsfahaninin bu əsəri daha qiymətlidir. Çünki əl-İsfahani "Kitəb əl-əğani" əsərində olduğu kimi, adıçəkilən kitabını da ensiklopedik xarakterli əsər kimi qələmə almış, 300-dən artıq islam şəhidinin bioqrafiyasını və qətl hadisələrini [17, s.316-318] tarixiləşdirmişdir.

Qeyd etdiyimiz kimi, məqtəl əsərləri başlanğıcını ərəb ədəbiyyatından götürsə də, İranda Büveyhilərin (935-1055) hakimiyyətə gəlişindən sonra [12, s.22] şiə məzhəbi hakim dini ideologiyaya çevrildiyindən fars ədəbiyyatında da bu mövzuda əsərlər geniş yazılmağa başlandı. Həmçinin Səfəvilərin hakimiyyəti dövründə (1499-1750) də məqtəl əsərləri yazılırdı [12, s.23]. Fars dilində yazılan məqtəllərin, demək olar, hamısı Kərbəla vaqiəsinə həsr edilmiş əsərlərdir. Bu dildə qələmə alınmış ən məşhur əsər Herat vaizi Hüseyn Vaiz Kaşifinin (v.1504-1505) müəllifi olduğu "Rouzətuş-şuhəda" ("Şəhidlər bağçası") əsəridir. Əsər "Dibaçə", 10 bab və "Xatimə"dən ibarətdir. Əsərin belə quruluşu məqtəl ədəbiyyatında ilk olmuş, daha sonrakı məqtəllər üçün qəlib rolunu oynamışdır. Kərbəlada baş vermiş hadisə məhərrəm ayının 10-da olsa da, hadisələrin inkişafı daha əvvələ aiddir. Məhərrəm ayının 1-də Hz. Hüseyn öz tərəfdarları ilə səfərə çıxdığından və Kərbəlada olduqları bir neçə gün mühasirədə qalmaları səbəbindən sonrakı dövrlərdə Kərbəla təziyələri məhərrəm ayının 1-dən başlayar, 9-10-cu günlərində şəbih tamaşaları ilə davam edərdi. İlk on günü təziyədarlar mərsiyələr dinləyər, baş verən hadisələri xatırlayardılar. Zaman keçdikcə məqtəl əsərləri oxunmağa başladığından Vaiz Kaşifi də əsərini hər günə bir bab oxunması üçün 10 baba bölmüş, ondan sonrakı müəlliflərin də əksəriyyəti bu bölgüyə riayət etmişdir [12, s.26]. Kərbəla təziyələrində mərsiyə oxuyanlara mərsiyəxan, irihəcmli məqtəl əsərlərini oxuyanlara isə rövzəxan deyilirdi. Bəlkə də bu adlanma öz başlanğıcını Kaşifinin "Rouzətuş-şuhəda" əsərindən götürmüşdür. Lüğətdə mənası "bağça", "yaşıllıq", "güllük" olan *rövzə* sözü H.V.Kaşifinin məlum əsərindən sonra "yas", "matəm", "təziyə saxlamaq" mənalarında işlənməyə başlamış, məhərrəm ayında məqtəl və ya mərsiyə oxuyan din xadimi mənasında işlənən "rövzəxan" kəlməsi də buradan yaranmışdır [14, s.23].

"Rouzətuş-şuhəda"nın öz dövründə çox məşhur olmasını göstərən dəlillər arasında onun hələ yazıldığı əsrə aid olan bir sıra əlyazmaların dünya kitabxanalarında mövcudluğudur. Həmçinin əsər orta əsrlərdə bir neçə Şərq dilinə, o cümlədən Azərbaycan-türk dillərinə tərcümə edilmişdir. Əsəri XVI əsrdə (1539) "Şühədanamə"[1] adı ilə ana dilinə çevirən tərcüməçi Məhəmməd Hüseyn bin Katib Nişati müqəddimədə özünü mütərcim kimi deyil, müsənnif – müəllif kimi təqdim edir [15, s.58]. Nişatinin "Şühədanamə" əsəri dil-üslub baxımından daha çox seçilir. Burada fars, ərəb sözləri nisbətən azdır, müəllif bacardıqca öz doğma dilində olan sözlərdən istifadə etmişdir... "Şühədanamə"nin dil-üslub xüsusiyyətlərinə görə "Dədə Qorqud"la yaxından səsləşməsi də qanunauyğundur [10, s.8].

[1] "Şühədanamə" əsərinin dünyada məlum olan yeganə avtoqraf nüsxəsi AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılır. Şifri: M-259 [14, s.24]

"Rouzətuş-şuhəda" əsərinin tərcüməsi kimi qiymətləndirilən digər əsər Füzulinin "Hədiqətus-suəda" əsəridir ki, onu ayrıca yarımbaşlıq altında nəzərdən keçirmək daha münasibdir.

"Riyazu-l-quds"un sələfi "Hədiqətus-suəda" əsərinin bəzi xüsusiyyətləri. Ərəb və fars dillərində çox məşhur əsərlər yazılsa da, məqtəl mövzusu "Hədiqətus-suəda" ilə zirvəyə çatır. Füzulinin poetik dili, üslubu və fəlsəfi dünyagörüşü özünə qədər çoxsaylı əsərlər yazılmasına baxmayaraq, ona bu mövzuda dönüş yaratmağa imkan vermişdir. Müəllifin həcmcə ən böyük əsəri olan "Hədiqətus-suəda"nı bir sıra tədqiqatçılar [8, s.24; 14, s.47; 12, s.66-100 və b.] orijinal deyil, "Rouzətuş-şuhəda"dan sərbəst tərcümə edilmiş bir əsər, daha dəqiqi, "Rouzətuş-şuhəda"dan iqtibas edilərək fərqli dillərdə Füzulinin müəllifi olduğu şeir parçaları ilə bəzədilmiş məqtəl nümunəsi hesab edirlər. Mövzunun ortaqlığı prinsipi ilə yanaşsaq, bir sıra klassik əsərlər bir-birinin tərcüməsi hesab edilməlidir (məs., fərqli dillərdə yazılmış "Leyli və Məcnun"lar, oxşar süjetli "Xosrov və Şirin"lər və ya "Yusif və Züleyxa"lar kimi). "Hədiqətus-suəda" əsərinin ərəb əlifbasından transfoneliterasiya edilərək çap edilmiş ilk tam nəşrinin girişində ("Şəhidlik abidəsi") Əliyar Səfərli də qeyd edir ki, "Füzulinin "Hədiqətüs-süəda" əsəri ənənəvi-müştərək bir mövzuda yazılmışdır" [10, s.5]. Amma bu məsələdə ən dəqiq sözü "Hədiqətus-suəda"nın müəllifi deyir: "Məqtəli-türki" adlandırdığı əsərinin "Dibaçə"sində Füzuli yazır ki, "...mən xaksarın niyyəti odur ki, əsli-təlifdə (ilk (ibtidai) əsər – *N.K.*) "Rouzətuş-şuhəda"yə iqtida qılıb (təqlidetmə – *N.K.*) sair kütübdə olan nukati-qəribələri mümkün olduqca ona əlavə qılam və "Hədiqətus-suəda" ilə movsum edib (möhürləyib – *N.K.*) on bab və bir xatimədə surəti-təlifinə (nüsxə – *N.K.*) itmam verəm..." [9, s.7]. Göstərilən parçadan belə aydın olur ki, Füzuli Kaşifinin əsərini nümunə seçsə də, ona başqa mənbələrdən də əlavələr etməklə "binayi-mücəddid" (yeni, saf bina) [9, s.6] yazmaq istəmişdir. Eyni zamanda, belə bir fikir də söyləmək olar ki, Kaşifi əsərini "Şəhidlər bağçası" adlandıraraq, özündənəvvəlki müəlliflərin əksəriyyəti kimi, İslam müqəddəslərinin, həmçinin onlara yaxın ailə üzvləri və silahdaşlarının qətl hadisəsini qələmə almaqla kifayətlənmişdir. Füzuli isə bədbin ruhlu şair kimi tanınmasına baxmayaraq, məlum əsərini "Xoşbəxtlər bağçası" adlandırır, Kərbəlada şəhid olan insanların, əslində, xoşbəxt olduqlarını elə əsərinin adından başlayaraq vurğulayır. Başqa sözlə, hamıya məlum hadisələri təkcə gözəl sözlə nəql etmir, həm də özünün fəlsəfi düşüncələrini ifadə edir. Ə.Səfərlinin də qeyd etdiyi kimi, Füzulinin "Hədiqətus-suəda" əsəri kor-koranə etiqad və ruhi iztirabları təbliğ və təşviq edən bir əsər deyildir. İslam dininin ağıl-irfan fəlsəfəsini, müqəddəs qayə və etiqadlarını, ideal bir din kimi müdrikliyini, ilahi qüdrət və əzəmətini yeni bir vüsətlə səsləndirir [10, s.15-16].

Başqa bir fakta diqqət edək: hələ 1958-ci ildə Füzulinin vəfatının 400 illiyi ilə əlaqədar çap olunmuş silsilə məqalələr çərçivəsində akademik Həmid Araslı "Füzulinin çap olunmamış əsərləri haqqında" məqaləsində qeyd edirdi ki, şairin "Leyli və Məcnun" əsəri Türkiyədə və Qahirədə 7 dəfə nəşr edildiyi halda, "Hədiqətus-suəda" əsəri 9 dəfə çap edilib, hətta yenidən nəşrə hazırlanır [1, s.152]. Maraqlıdır ki, Füzuliyə dünya şöhrəti gətirən "Leyli və Məcnun" poemasının çapına olan ehtiyac

"Hədiqətus-suəda"nın yayılmasından daha az olmuşdur. Nəzərə alsaq ki, XX əsrdə təkcə Azərbaycanda deyil, İslam dünyasında yeni məqtəllərin yazılması reallıqdan uzaqdır, ötən 60 il ərzində "Hədiqətus-suəda"nın yeni nəşr nüsxələrinin olması ehtimalı yüksəkdir və yenə də bu rəqəm "Leyli və Məcnun" nüsxələrinin sayını ötəcək. Orijinal olmayan bir əsərə bu qədər tələbatın olması, fikrimizcə, məntiqsizdir.

Əslində, "Hədiqətus-suəda"nın orijinal və ya tərcümə əsəri olması məsələsini araşdırmaq və ya fikirlərdən birinin sübutuna çalışmaq mövcud məqalənin məqsədi deyil. Eyni problem "Riyazu-l-quds" əsəri üçün də aktual olduğundan (bəzi tədqiqatçılar "Riyazu-l-quds"un Məhəmməd Bağır Məclisinin "Cəlalu-l-uyun" əsərindən sərbəst faydalanmaqla yazıldığını hesab edirlər) bu mübahisəli məsələyə toxunmaq zərurəti yaranır. Bu yerdə belə bir maraqlı faktı qeyd etmək yerinə düşər ki, hər iki halda istinad və ya iqtibas olunduğu hesab edilən əsərin müəllifi din xadimidir. Hüseyn Kaşifi Herat vaizi, Məhəmməd Bağır Məclisi isə iki Səfəvi hökmdarının sarayında şeyxulislam olmuşdur. Məqtəl əsərləri sadə insanlar üçün məhərrəmlik məclislərində oxunmaq və ya şəbih tamaşaları hazırlamaq məqsədilə yazılırdı. Bu səbəbdən dilləri mümkün qədər sadə olur, lakin din xadimləri və ya dini yaxşı bilən şəxslər tərəfindən yazılırdı. Ehtimal ki, şair və yazıçılar da əsərlərinin mötəbərliyini artırmaq, daha çox oxucu qazanmaq məqsədilə dövründə məşhur olan məhz *dini* məqtəllərə istinad edirdilər.

Professor Azadə Rüstəmova bu məsələ ilə bağlı fikirlərini belə qeyd edir: "Qarşılaşdırmalar və müqayisələr Kaşifi və Füzuli əsərlərində oxşarlıq və fərqlər də aşkar edir. Lakin unutmamalı ki, bu oxşarlıq mövzunun tarixi kökündən, fərqlər isə hər bir sənətkarın təxəyyül gücünün dərəcəsindən, estetik-bədii düşüncə tərzinin fərdiliyindən irəli gəlir. Füzuli əsəri hətta əgər təbdil, iqtibas olmuş olsa da, M.F.Köprülünün dediyi kimi, "ifadə qüdrəti və canlılığı baxımından" Hüseyn Vaizin əsərindən, şübhəsiz ki, üstündür" [2, s.425].

Həmçinin Füzuli məlum mövzunu fərqli faktlarla zənginləşdirsə də, "Rovzətuş-şuhəda"da olan bəzi epizodlar əksinə, əsərdə yer almamışdır. Füzuli əsərinin daha çox bədii yöndən gözəlliyinə diqqət etmiş, "Hədiqətus-suəda"ya, bir növ, "psixoloji roman səciyyəsi aşılayaraq" [3, s.425], tarixi deyil, gözəl poetik sənət əsəri yaratmışdır.

"Riyazu-l-quds" əsərinin mövzusu, quruluşu və məzmunu. Azərbaycanda məqtəl ədəbiyyatı orta əsrlərdə formalaşsa da, XIX əsr bu ədəbiyyat üçün xüsusi mərhələ təşkil edir. Hicri tarixi ilə 61-ci ilin məhərrəm ayının 10-da (miladi 680-ci ilin oktyabr ayında) Kərbəlada baş vermiş hadisələri emosional dillə qələmə almış şairlər həm ideya-mövzu, həm də sənətkarlıq baxımından diqqəti cəlb edən, böyük maraq doğuran poeziya nümunələri yaratmışlar. Bu dövrdə məqtəllər, əsasən, nəzmlə yazılırdı. Qumrinin Kərbəla vaqiəsinə həsr etdiyi "Kənzu-l-məsaib" ("Müsibətlər xəzinəsi") əsəri nəzmlə yazılmış məqtəl nümunələrindəndir. Əbülhəsən Raci, Əmin Dilsuz Təbrizi, Hacı Rza Sərraf Təbrizi Kərbəla hadisəsini nəzmlə qələmə almışlar. Əsrin məşhur məqtəllərindən biri də A.Bakıxanovun "Riyazu-l-quds" əsəridir. Tədqiqatçıların ümumi fikrinə görə, A.Bakıxanovun "Riyazu-l-quds" əsəri Füzulinin

"Hədiqətus-suəda" əsərinin ədəbi təsiri ilə yazılmış bir əsərdir. Müasir ədəbiyyatşünaslığımızda Zaman Əsgərli Abbasqulu ağa Bakıxanovun bədii nəsr yaradıcılığı sahəsindəki fəaliyyətini yüksək qiymətləndirərək xüsusən "Riyazu-l-quds"ə böyük əhəmiyyət verir: xalis Şərq, Füzuli ənənələri əsasında yaranan klassik nəsrin zirvəsində məşhur şair, alim və ictimai xadim Abbasqulu ağa Bakıxanovun "Riyazu-l-quds" əsəri dayanır [4, s.4]. İstər din xadimləri olan H.Kaşifi və M.B.Məclisi, istərsə də Füzuli özü məlum əsərlərini qələmə alarkən dolğun yaşda və təcrübəli idilər. A.Bakıxanovun "Riyazu-l-quds" əsəri isə müəllifin ilk qələm təcrübələrindəndir və ilk irihəcmli əsəridir. Əslində, təkcə bu səbəbdən A.Bakıxanovun əsərini ədəbi təsir altında yazması və ya din xadiminin tarixi əsərini tərcümə etməsi adi olmalıdır. Lakin müəllif əsərini "Hədiqətus-suəda" kimi həm nəsrlə, həm də nəzmlə yazsa da, fikirlərinin isbatı üçün təkcə "Cəlalu-l-uyun"dan deyil, başqa əsərlərdən də sitatlar gətirmişdir. A.Bakıxanovun tədqiqatçılarından Ənvər Əhmədov "Riyazu-l-quds"də ədibin bir sıra əlavələr etdiyini, ixtisarlara yol verdiyini qeyd edir [18, s.76]. "Riyazu-l-quds" əsəri, "Hədiqətus-suəda"dan fərqli olaraq, 14 babdan ibarətdir. Müəllif hər fəslini ərəbcə xütbə ilə başlayır ki, istinad və ya iqtibas olunduğu hesab edilən əsərlərdə belə başlanğıc yoxdur. Şeirlər Füzulidə ərəbcə (16) və türkcə (525) olduğu halda, Bakıxanovda 3 dildə – ərəb (21), fars (18) və türk (255)[1] dillərindədir. "Cəlalu-l-uyun"[2] isə yalnız nəsrlə yazılmış 14 babdan ibarətdir. Ərəbcə şeirlərdən yalnız birinin müəllifi A.Bakıxanov özüdür, digər şeirlərin ya müəllifi göstərilmiş, ya da klassik ənənəyə uyğun olaraq "lə ədri" (bilmirəm) ifadəsi ilə qeyd edilmişdir. Fars və türk dillərində olan şeirlər isə ədibin özünə məxsusdur. Bunların bir neçəsi Füzulidə olduğu kimi, onun da başqa əsərlərində və ya "Divan"ında yer almışdır. Əsərin "Hədiqətus-suəda"ya bu qədər bənzəməsi onun klassik məqtəl nümunəsi olduğunu deməyə imkan verir. "Riyazu-l-quds"ün "əlyazmasının imla təhlili" [13, s.21-31] belə onun klassik məqtəl nümunəsi olduğunu göstərir. Əsərin nəsr hissələri, özündənəvvəlki klassik məqtəllər kimi, səc (qafiyəli nəsr) üslubunda yazılmışdır. Yazıçı əsərinin quruluşunu "Hədiqətus-suəda"dan götürsə də (burada quruluş dedikdə nəzmlə nəsrin növbələşməsi şəklində yazılması, nəsrin qafiyəli olması, fərqli dillərdə şeir parçalarından istifadə edilməsi nəzərdə tutulur), tarixi mənbə olaraq təkcə "Cəlalu-l-uyun"dan faydalanmamışdır. Müəllifin dibaçədə göstərdiyi və ya əsər boyu iqtibas etdiyi mənbələr arasında "Rouzətu-l-vaizin", "Eynul-buka", "Rouzətuş-şuhəda", "Həqqu-l-yəqin", "Məqatilut-talibin" kimi əsərlərin adları çəkilməlidir [13, s.38-39]. Ərəb və fars dillərində yazılmış bu cür mənbələrdən istifadə etməsi A.Bakıxanovun əsərinin qiymətini və məşhurluğunu artırmışdır. Bu səbəbdən Abbasqulu ağa Bakıxanovun "Riyazu-l-quds" əsərini bədii parçalarla bəzədilmiş tarixi tədqiqat hesab etmək olar. Füzulidə isə əksinə, tarixilikdən çox bədiilik var və bəşəri, insani hisslərin tərənnümü daha üstündür.

[1] Şeirlərin sayı üçün bax: [10, s.15; 13, s.43]

[2] "Cəlalu-l-uyun" əsərinin Bakıda 20 əlyazma nüsxəsi vardır ki, onlardan birinin üzü əsər tamamlanan il – 1679-cu ildə köçürülmüşdür [13, s.52].

A.Bakıxanov da özündənəvvəlki məqtəl əsərləri kimi, Hz.Hüseynin (ə) və tərəfdarlarının qətlinə daha çox yer ayırmış, "Cəlalu-l-uyun" kimi, 14 babını 14 məsumun adı ilə bağlamışdır. Demək olar, bütün babların adları klassik əsərlərdə olduğu kimi, uzun izafət tərkibləri ilə adlanmışdır. Məsələn, Hz. Hüseynin qətlinə həsr olunan və 8 fəslə bölünmüş ən geniş [6, v. 23a-78b] bab olan beşinci bab "Həzrəti-seyyiduş-şuhəda və xamisi-ali-əba və imami-zumreyi-suəda və sultani-diyari Kərbu-bəla və .... əhli-səbru-ibtila və güli-bustani-risalətu-şərafət və sərvi-cuybari-imamatu-xilafət və laleyi-gülgünkəfəni-çəməni-şəhadət və çirağı-nurbəxşi-dudmani-seyyidus-səqəleyn və guşvareyi-ərşi-ala – Əbi Abdullah əl-Hüseyn əleyhis-səlamın ağır ömründən işarədir və vəqayei-əhvalın bəyan edər" adlanır [6, v. 23 a].

Abbasqulu ağa Bakıxanovun "Riyazu-l-quds" əsəri bu günə qədər tam nəşr edil-məmişdir. Əlyazmanı ilk dəfə tam şəkildə nəzərdən keçirib müqayisəli öyrənən müa-sir tədqiqatçımız Möhsün Nağısoylu əsər bitdikdən sonra əlyazmanın sonunda əlavə 3 vərəqin olduğunu qeyd edir. Bu 3 vərəqdə katib müxtəlif şairlərin fars və türkcə növhələrini yazmışdır. Onlardan biri də A.Bakıxanova məxsusdur [13, s.61-62].

Kərbəla əhvalatı xeyir və şər qüvvələrin, işıq ilə qaranlığın əksi və mübarizə-sinin təcəssümü kimi tarix boyu ədəbi əsərlərdə yer almışdır. A.Bakıxanov da müd-rikliklə cəhalətin bu mübarizəsində öz inam və ehtiramını bədii dillə ifadə edir. Hüseyn (ə) və onun tərəfdarlarının göstərdiyi müqaviməti haqqın, ədalətin, insanlığın mübarizəsi və özünütəsdiqi kimi qiymətləndirir. Hüznlü hadisələrin təsvirinə ətraflı yer verilən əsərdə müsibət, faciə öz bədii ifadəsini geniş şəkildə tapmışdır. A.Bakı-xanov emosionallıqla təsvir etdiyi hadisələrin təsir gücünü müxtəlif janrlı lirik şeir parçaları ilə daha da qüvvətləndirmişdir:

Hər könül kim, qəmü dərd ilə tərəbnak olmaz,
Rənci bihudə çəkər, qabili-idrak olmaz.
Əhli-dil qəlbini atəşgədəyi-mehr qılar,
Buteyi-qəmdə əgər yanmasa, ol pak olmaz.
Cannisari-rəhi-yar olmaq üçündür, ari,
Lafi-ülfət vuranın varinə əmsak olmaz [6, v.18b].

"Riyazu-l-quds"un nəsr və nəzm dili arasında müəyyən fərqlər də vardır. Nəsr hissəsi çətin, ərəb və fars sözləri ilə zəngin olduğu halda, türkcə olan nəzm parçaları daha aydın dildədir [3, s.111]. Eyni zamanda qeyd etmək lazımdır ki, əsərdəki şeir parçaları müstəqil əsər təsirini bağışlayır və bəzən əsərin əsas hissəsi ilə o qədər də səsləşmir. Bəlkə də bunu diqqətə alan Məmmədağa Sultanov A.Bakıxanovun "Bədii əsərləri"ni hazırlayarkən əsərin mənzum parçalarını ayrıca toplayaraq nəşr etdirmişdir [7, s.327-343]. Əsərdəki şeir parçalarının birində A.Bakıxanov müasirlərinə, hətta xələflərinə müraciət edərək yazır:

İbrət gözilə ey del,
Gərdunə qıl nəzarə.

Nə etibar edirsən
Dövrani-ruzigarə?!
Gülzari-aləm içrə
Hər qönçə kim yetirmiş
Bağrını eyləmiş qan,
Cismini parə-parə [6, v.58a].

Şair burada seçilmiş insanlara, onların övladlarına mərhəmət etməyən bəşər övladına etibar etməməyə, tarixdən ibrət götürməyə səsləyir.

Müəllif əsərində real həyat hadisələrinə diqqət çəkmiş, valideyn sevgisi, övlad borcu, dostluq, mərdlik və s. kimi insani xüsusiyyətləri daha qabarıq göstərmişdir. Əsərin hər babı ayrıca, bitkin məzmun daşısa da, ümumi təhkiyəsində də məntiqi bir ardıcıllıq vardır.

Nəticə. Əsası tarixi əsərlər kimi qoyulan, lakin zaman keçdikcə bədii xüsusiyyətləri artan məqtəl nümunələrində ərəblər hadisələri nə qədər ədəbiləşdirməyə çalışsalar da, fars və Azərbaycan-türk dillərində yazılmış əsərlər daha bədii olmuş və bu səbəbdən də daha geniş yayılma və tanınma imkanı qazanmışdır. Bu əsərlərdən ən məşhuru "Hədiqətus-suəda" əsəridir ki, özündən sonra yeni bir ənənənin əsasını qoymuş, əsərin müəllifi dahi Füzuli bu mövzuda da məktəb yarada bilmişdir.

Yeni üslubların təşəkkül tapdığı və yayılmağa başladığı XIX əsrdə ənənəvi əsərlər kimi dibaçə ilə başlayıb xatimə ilə bitən "Riyazu-l-quds" əsəri klassik ənənənin hələ də davam etdiyini göstərir. Məzmun, quruluş və formaca klassik məqtəl olan əsərdə bədii xüsusiyyətlər cəhətdən A.Bakıxanovun öz dəstxəti hiss olnur. Klassik əsərlər kimi nəsri qafiyəli (səc'), nəzmi klassik şeir formalarından olan qəzəl, rübai, mürəbbe və s. ilə zəngin olan əsərdə poetik fiqurlar, bənzətmələr müəllifin üslubunun fərqliliyini göstərir. Həmçinin A.Bakıxanov nə qədər klassik ənənədən təsirlənsə də, XIX əsrdə baş vermiş hadisələr də onun gənc yaddaşına təsirsiz ötüşməmişdir. Əsərdə tarixi hadisələrdən qaynaqlanan vahid ideya, amal uğrunda mübarizə, zülmə və xəyanətə müqavimət, ədalət, etibarlılıq, dürüstlük kimi xüsusiyyətlər təbliğ və tərənnüm edilir.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT:

1. Araslı H. Füzulinin çap olunmamış əsərləri haqqında. // "Azərbaycan" jurnalı, № 4, 1958, səh.152-160
2. Azərbaycan ədəbiyyatı tarixi. 6 cilddə, III cild, Bakı: Elm, 2009, 736 s.
3. Azərbaycan ədəbiyyatı tarixi. 6 cilddə, IV cild, Bakı: Elm, 2011, 860 s.
4. Azərbaycan nəsri antologiyası. 5 cilddə, I cild, Bakı: Şərq-Qərb, 2006, 312 s. Tərtib edən: Zaman Əsgərli
5. Babaşahoğlu Ə. Məqtəl janrında katarsis mərhələsi. // "Çıraq" jurnalı, № 3, s. 6-13
6. Bakıxanov A. "Riyazu-l-quds". AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu. Şifr D-140, 7472.
7. Bakıxanov A. Bədii əsərlər. Bakı: Azərnəşr, 1964, 389 s.
8. Feyzullazadə V. Füzulinin ömür yolu. Bakı: Azərnəşr, 1995, 151 s.
9. Füzuli M. Hədiqətüs-süəda. İstanbul, 1884, 290 s. (ərəb əlifbasında)
10. Füzuli M. Hədiqətüs-süəda. Tərtib: Səfərli Ə., Nağısoylu M., Göyüşov N. Bakı: Gənclik, 1993, 368 s.
11. Qəribli A. Füzulinin "Hədiqətüs-süəda"sından XIX əsr təriqət şeirinə. // "Dövlət və din". № 3 (32) Mart, 2015, s.58-68
12. Mirzəyev A. Füzulinin "Hədiqətüs-süəda" əsəri orta ərslər tərcümə abidəsi kimi. Bakı: Nurlan, 2001, 181 s.
13. Nağısoylu M. Abbasqulu ağa Bakıxanovun "Riyazu-l-quds" əsəri. Bakı: Elm və təhsil, 2014, 172 s.
14. Nağısoylu M. Füzulinin "Hədiqətüs-süəda" əsəri. Bakı: Nurlan, Bakı, 2002, 142 s.
15. Nağısoylu M. XVI əsr Azərbaycan tərcümə əsəri "Şühədanamə". Bakı: Nurlan, 2003, 192 s.
16. Güngör Ş. Maktel. // İslam Ansiklopedisi. 27. Cilt. Ankara: TDV yayınları, 2003. s. 455
17. Kılıç H. Ebul-Ferec el-İsfahani. // İslam Ansiklopedisi. 10. Cilt. Ankara: TDV yayınları, 1994. s. 316-318
18. Ахмедов Э. А.К.Бакиханов: эпоха, жизнь, деятельность. Баку: Элм, 1989, 228 с.

Kamala Nuriyeva

**Abbasgulu aga Bakikhanov's work "Riyazul-guds"
as a continuation of magtal traditions in classic literature**

S u m m a r y

In spite of the fact that sources of magtal literature, historical and literary works dedicated to famous martyrs of Islamic religion, were derived from Arabic literature, written monuments of Azerbaijan and Persia were much more famous and laid foundation to distinctive style and literary course. Research of this traditional style of Azerbaijani literature from independent point of view is quite topical at present time. As the object of the research of the article was chosen "Riyazul-guds" by Abbasgulu aga Bakikhanov, one of the examples of magtal literature.

The article consists of an introduction, 3 parts and a conclusion. In the part under the title "Characteristics of magtal style's form and content, examples of magtal literature of Middle Ages" was given the information about history of foundation, the pecularities of the form and content and the works of magtal style of different period. It is mentioned in the article the famous work of Azerbaijan literature "Hadigatus-sueda" by Fuzuli under the headline "Some peculiarities of the work "Hadigatus-sueda" as the predecessor of the work "Riyazul-guds". In the part entitled "Topic, structure and content" of 'Riyazul-guds" the work was the object of research in the context of sorrow literature for the first time. It was proved in the article the idea that the work "Riyazul-guds" is an example of magtal literature of classical period according to its structure topic and content. In spite of two centures had passed since its writing, the work has not been the object of research and has not published without transphonoliteration. In the process of research it was used single known manuscript (D-140) kept in the Institute of Manuscripts. It is important to study and publish the work that has come to the modern times as a manuscript in order to propagate Bakikhanov's heritage for the contemporaries and to pass it to the future generations in a complete form.

Кямаля Нуриева

Произведение «Риязю-л-гудс» А.Бакиханова как продолжение традиций классического «магтала»

Р е з ю м е

Исторические и литературные произведения о знаменитых мучениках ислама берут своё начало с арабской письменной литературы, эти произведения, написанные на персидском и азербайджанском языках стали более популярными и послужили основой формирования нового стиля и литературной тенденции. Изучение литературы «магтал», являющейся традиционной для азербайджанской литературы актуально с точки зрения современной и независимой науки. В данной статье объектом исследования выбран труд А.Бакиханова «Риязю-л-гудс», как один из примеров классического магтала (вид литературы скорби).

Статья состоит из введения, трёх разделов и заключения. В разделе статьи «Особенности формы и содержания литературы магтал, образцы средневековых произведений магтал» информация об истории формирования произведений «магтал», формы и содержания, произведения, относящиеся к разным историческим периодам. Произведение Физули «Хадикатус-суада», которое занимает важное место в азербайджанской литературе, приводится в разделе «Некоторые особенности «Хадикатус-суада» – предшественника «Риязю-л-гудс»». Поскольку, произведения «магтал» являются классической литературой скорби, труд А.Бакиханова «Риязю-л-гудс» впервые был представлен объектом исследования в контексте литературы скорби, в разделе статьи «Тема, форма и содержание «Риязю-л-гудс»». Произведение «Риязю-л-гудс», являющееся главным объектом статьи, было проанализировано и установлено, как образец классического «магтала». Не смотря на то, что с момента написания произведения прошло два века, работа не была полностью исследована и даже опубликована в виде трансфонелитерации. Для написания соответствующего раздела статьи был использован образец рукописи произведения («Риязю-л-гудс») – единственный экземпляр в настоящее время известной науке, который хранится в Институте Рукописи им. М.Физули (D-140). Изучение и публикация произведения А.Бакиханова дошедшее до наших дней в виде рукописи (в единственном экземпляре) является важной задачей для знакомства современников и возможность полностью передать наследие А.Бакиханова последующим поколениям.